Xalq qəzeti .- 2025.- 8 aprel (№ 67).

# Güvəndik kəndinə güvənc gətirən igid



**Samiq Misir oğlu Fərzalıyev 8 iyul 1992-ci ildə Tovuz rayonunun Güvəndik kəndində anadan olub. Azərbaycan Dövlət Aqrar Universitetini bitirib. Sonra Müdafiə Nazirliyinin Sərhəd Qoşunlarının "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət keçib. Xidmət zamanı hərbçi peşəsinin çətinliklərini, daim ayıq-sayıq olmağın hərbçilər üçün həm vəzifə, həm də vicdan borcu olduğunu görüb və bu peşəni sevib.**

Hərbi xidmətini ləyaqətlə tamamlayan, çətinlikləri dəf etməkdən çəkinməyən Samiq evə qayıtdıqdan sonra ailəsinə ixtisasına uyğun işdə çalışmaq istəmədiyini bildirib və hərbçi olmaq arzusunu dilə gətirib. Bundan sonra o, 2016-cı ildə Müdafiə Nazirliyinə könüllü müraciət edərək ordu sıralarında xidmət göstərmək arzusunu bildirib. O, həqiqi hərbi xidmət keçdiyi N saylı hərbi hissədən verilən xasiyyətnamə-arayışla Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə kursa göndərilib. Kursu uğurla bitirən Samiq leytenant hərbi rütbəsi alaraq "N" saylı hərbi hissədə xidmətə başlayıb. Hərbçi peşəsinə ürəkdən bağlanan Samiq 4 il xidmət zamanı verilən bütün tapşırıqların öhdəsindən gələrək, rəhbərliyin etimadını doğruldub.

Tarixə düşən 2020-ci ildə Samiqə baş leytenant rütbəsi verilib. Gənc hərbçinin ən böyük arzusu torpaqların azad edilməsi uğrunda mücadiləyə qoşulmaq olub. Qonşu Ermənistan tərəfindən ara-sıra doğma rayonunun atəşə tutulması onda ermənilərə qarşı uşaqlıqdan yaranan nifrəti birə-beş artırıb. O inanıb ki, işğal altında olan torpaqlarımız sülh yolu ilə olmasa da, gec-tez döyüşlə geri alınacaq. Və o günü səbirsizliklə gözləyib.

Nəhayət, o gün yetişib. Baş leytenant Samiq Fərzalıyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib. Döyüş yoldaşları onu xatırlayaraq danışırdılar ki, Samiq tabeliyində olan hər bir əsgərə qardaş kimi qayğı göstərib, onları öz doğması bilib. Oktyabrın 7-də Füzulidə gedən ağır döyüşlər zamanı 2 əsgərinin atəşə tuş gəldiyini və yerə yıxıldığını görüb. Deyib ki, "uşaqları orada qoymaq olmaz, bəlkə yaralanıblar, atəşin səngiməsini gözləyə bilmərəm". Ona nə qədər "Dayan" desələr də yalnız torpağa sərilən əsgərlərini düşünüb və onları təxliyə etmək məqsədilə irəli atılıb. Aramsız atəş altında sürünərək onların yanına çatıb və hər iki əsgərinin şəhid olduğunu görüb. Hərəsini bir çiyninə alaraq atəş bölgəsindən çıxarmaq üçün geri dönüb. Bir qədər həmin vəziyyətdə süründükdən sonra, nəşləri döyüş bölgəsindən çıxarmağa az qalmış mənfur düşmənin snayper atəşinə tuş gələrək özü də şəhid olub. Onu doğulduğu torpaqda, Güvəndik kəndində dəfn ediblər.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə, Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamlarına əsasən, Samiq Misir oğlu Fərzalıyev ölümündən sonra III dərəcəli "Rəşadət" ordeni, "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "İgidliyə görə" medalları ilə təltif edilib.

Samiqin 1 bacısı və 1 qardaşı var. Kənd camaatının dediyinə görə, Samiq çox vətənpərvər, qorxmaz, eyni zamanda, həddindən çox mehriban olub. Kimi görsə ondan ətraflı hal-əhval tutub, uşaqlarını soruşub. Bir köməyə ehtiyacı olub-olmadığı ilə maraqlanıb. Gənc olmasına baxmayaraq, xeyirə-şərə yarayan olub. Bacısı – Sürməli qardaşının yoxluğuna inanmasa da, kənd qəbiristanlığını şərəfləndirən Samiqlə həm də fəxr edir. Qardaşı Samir isə "Zəng edəndə dedi ki, evdəkilərə demə, sabah Füzuliyə giririk. Bizi ağır döyüş gözləyir. Nəyin bahasına olursa-olsun, torpaqları ala-ala irəliləməliyik." – sözlərini heç unutmur. "Belə qardaşım olduğuna görə özümü şanslı sayıram. O mənim üçün həmişə sağdır. Hara gedirəm, nə iş görürəmsə, xəyalən onunla söhbət edib məsləhət alıram"– deyir.

Samiqin valideynləri – Misir və Mətanət Fərzalıyevlər isə övladlarının yoxluğuna nə qədər üzülsələr də, onun Vətənin azadlığı uğrunda şəhidlik məqamına yüksəldiyinə görə təskinlik tapırlar. Atası: "Ayın 1-də döyüşə giriblər. Yoldaşları danışır ki, güclü döyüşdən sonra ertəsi gün komandirə dedilər ki, sən qal, bu dəfə əsgərlərlə digər zabit getsin. Razı olmayıb ki, mən əsgərlərimi kimsəyə etibar etmərəm, özüm onlarla olmalıyam". Anası: "Hər dəfə zəng edəndə özünüzdən muğayat olun, deyirdi. Deyirdim, ay bala, biz rahat ev-eşiyimizdəyik, sən özündən muğayat ol, özünü qoru".

Samiq ailəli idi. Həyat yoldaşı Aytac Əliyeva deyir: "Samiq müharibəyə gedəndə içimdə nəyinsə qırıldığını hiss etdim. Nə biləydim ki, o qırılan Samiqin yarım qalan ömrü, mənim isə alın yazım olacaq. Hər gün narahat idim. Müharibənin tez bir zamanda bitməsi, onun sağ-salamat qayıtması üçün Allaha gecə-gündüz yalvarır, dualar edirdim. İndi onun qızı Samiqəni böyütmək, atasına layiq övlad olması üçün çalışacam. Samiq qızını həkim görmək istəyirdi. O, ölümü ilə təkcə ailəsinə yox, bütün kəndə, sevdiklərinə başucalığı gətirdi. Lazım gələndə Vətən üçün candan keçməyin vaciblik örnəyi oldu. Onun adını yaşadan qızım mənim yaşama səbəbimdir. Samiqin xatirəsini əbədiləşdirmək üçün salınıb istifadəyə verilən bulaq kompleksindən su içənlər də onu daim xatırlayır, ruhuna dualar oxuyurlar".

Şəhid zabitin yaxın qohumu Malik Nəsirov Samiqin hələ uşaq yaşlarından öz vətənpərvərliyi ilə seçildiyindən danışır: "Məktəb tədbirlərində Vətən mövzulu şeirlər oxuyanda hərbi formaya uyğun geyimlərlə çıxış edərdi. İstəyi hərbçi olmaq idi, oldu. Zabit paltarı geyməyi arzulayırdı, o da oldu. Ordu sıralarına bir zabit kimi qosulandan sonra Qarabağ torpaqlarımızı düşməndən azad etmək və Azərbaycanın şanlı bayrağını Şuşada qaldırmaq həyatının ən böyük arzusu idi. Hərbçi olmaq, Qarabağın azadlığı uğrunda döyüşmək arzusu çin olsa da, Şuşanın azad olunmasını görmək Samiqə qismət olmadı. Ancaq onun zabit yoldaşları, igid əsgərlərimiz Samiqin, digər şəhidlərimizin arzusunu həyata keçirməklə, onların ruhunu şad etdi! Tanrı şəhidlərimizə rəhmət, qazilərimizə şəfa, ordumuza güc, qüvvət versin"!

***Zərifə BƏŞİRQIZI***
***XQ***